**Əhməd, Səhər**. Qarabağdan gələn xəbər / S. Əhməd // Ədəbiyyat qəzeti. - 2020. - 7 noyabr. - **№ 49**. - S. 29.

Qəfildən gənc bir oğlan hasarın başından göydən düşən kimi həyətə tullandı...

Bu cümlə mənim indi sizə danışacağım əhvalatın razvyazkasıdı, onu beynimdə ölüb getməyə qoymayan ən diri səhnəsi.

...Qızmar aran yayının ən sərin anlarından biri idi. Soyuq səhər yeli sürahisiz eyvanda qurulmuş miçətkənin ətəklərini yellədirdi. Gecədən kənara tulladığım yorğanı əl havasına tapıb ləzzətlə bürünmüşdüm ki, həyət qapısının açıldığını eşitdim. Sonra həyətdən həyəcanlı səslər gəlməyə başladı və mən şirin yuxu ilə dərin maraq arasında bir az vurnuxandan sonra yorğanı üstümdən tullayıb ayağa qalxdım. Tut ağacının dibində anamla rastlaşdım, o mənim sual verməyimi gözləmədən birbaşa mətləbə keçdi:

- Bibingilə gedirik, Tahirdən xəbər var, atangil Gəncəyə gedirlər, morqa.

Qarabağ müharibəsinin qızğın vaxtlarıydı, bibim oğlu Tahir ön cəbhədəydi və mən "xəbər" və "morq" sözlərindən sonra anama heç bir əlavə sual vermədim.

Biz həyət qapısından çıxıb iki qrupa ayrıldıq və iki ayrı səmtə üz tutduq, atam bibimin böyük oğlanlarıyla Gəncəyə, mən isə anamla bibimgilə tərəf.

İndi hər şeyi səssiz, lakin alt yazılı film kimi xatırlayıram, görüntülər və sözlər beynimdə diridi, səslər isə lap az yadımda qalıb.

Bibimgilin həyətinə qohum-qonşu yavaş-yavaş yığılırdı. Bibim Bakıda - ortancıl oğlugildə idi, evdə bircə sonbeşik Nigar idi.

Nigargil səkkiz uşaq idilər, dörd bacı, dörd qardaş. Hər bacının "öz qardaşı" vardı, hər qız yaşca daha yaxınını özünə bir köynək daha yaxın qardaş elan eləmişdi. Oğlanların kiçiyi Tahir qızların kiçiyi olan Nigarın "payına düşmüşdü".

Böyük oğlanlar evlənib ayrılmışdı, qızlar başqa evlərdə gəlin idi, Tahir müharibədəydi və Nigar bircə gün əvvəl ata-anasını Bakıdakı qardaşıgilə yola salmışdı. İndi bu ağır xəbəri ev yiyəsi olaraq qarşılamaq onun payına düşmüşdü.

Gənc qız həyətə yığışan adamlara baxdıqca döyükür, gah bir tərəfdə toplaşıb ağlayan qadınlara, gah başqa tərəfdə nəsə məsləhətləşən kişilərə üz tutub qışqırırdı:

- Ölməyib, mənim qardaşım ölməyib, ölsə, mən bilərdim, ölməyib, indi görəcəksiz.

Amma ona fikir verən yox idi. Qadınlar ağı deməyə cəsarət eləməsələr də, sakitcə ağlayır, kişilər xəlvətcə hazırlıq görürdülər, birini kəfən tədarükü üçün göndərir, başqa birini qəbir qazmağa yollayırdılar.

Həyətdə yas çadırı qurmağa başlayanda Nigarın səbri lap tükəndi:

- Eləməyin, qoyun anam gəlsin. Həyətimizdə yas çadırı qurmayın, mənim qardaşım ölməyib. - Sonra əlacsız qalıb get-gedə batan səsini alçaltdı, - Görərsiz, orda qardaşımçün toy çaldıracağıq.

Ər evində olan bacılar bir-bir gəlib çıxırdı. Ata evlərində yas ab-havasını görən qızlar qışqırıb ağlayır, Nigarın yanında yox, ağlayan qadınların yanında yer tuturdular. Nigar bacılarına da yad qadınlar kimi təpinirdi:

- Ağlamayın mənim qardaşıma!

Mən ağlayan qadınlarla Nigarın arasında dayanmışdım, ağlayırdım, amma içimdən nəsə məni ona tərəf çəkirdi, ona inanırdım, ürəyimdə yalvarırdım ki, qız susmasın, ümidini itirməsin, təslim olmasın.

Həmin anlarda atamgil kənddən Gəncəyə gedirdi, bibimgil Bakıdan kəndə qayıdırdı. Bizim kəndimiz Bakı ilə Gəncənin tam ortasındaydı, qapıdan birinci Gəncədən xəbər gətirən adammı, yoxsa Bakıdan qayıdan bibimmi girəcəkdi?! Hamının gözü həyət qapısına dikildiyi zaman sizə hekayənin əvvəlində dediyim o cümlədəki hadisə baş verdi. Kimsə hasardan şappıltıyla, göydən düşürmüş kimi, yadımda qaldığı kimi desək, düz həyətin ortasına tullandı. Oğlan müvazinətini saxlaya bilməyib dizi üstə torpağa çökdü və şappıltıyla bərabər boğuq bir səs eşidildi:

- O deyil!

Bu yerdə mənim beynimdəki səssiz filmdə kadr donur...

...Üç gün sonra Tahir məzuniyyətə gəldi. Camaat bibimgilin həyətinə gözaydınlığına yığışdı. Eynən Nigarın dediyi kimi, o çadırda şadyanalıq oldu. Tahir qəbiristanlığa gedib yarımçıq məzarı torpaqladı. Bizi başına yığıb şəhid olmuş əsgər yoldaşının necə yaralanmasından, ayrılarkən xərəkdə titrəyən oğlanın üstünə cibində sənədlərinin olduğunu unutduğu "buşlat"ını atmasından danışdı.

Sonralar atam nağıl edirdi ki, bacısı oğlanlarını morqa girməyə qoymadan özü cəsədə yaxınlaşıb və mələfəni qaldırıb mərhumun ayaqlarını görən kimi anlayıb ki, bu, bizim Tahir deyil. "Bədbəxt çox cüssəli adam imiş" burda atamın səsi qəhərdən qırılırdı. Əslində, "qırılırdı" daha dəqiq ifadə deyil, bu səs qəfildən, sanki qaranlıq və çox dərin bir quyuya düşürdü, bu quyu müharibə quyusuydu. Biz o səslə birgə o quyuya düşməyək deyə, o iri cüssəli şəhid haqqında çox düşünmək istəmirdik.

O deyil! Bu cümlə ilk dəfə atamın dilindən çıxmışdı, sonra qanadlanıb Gəncə poçtuna, ordan da telefonla kəndimizin poçtuna çatmışdı. Sonra həmin oğlan az qala uça-uça, kəsə yolla, həyətdən-həyətə keçib, hasardan-hasara tullanaraq xəbəri hadisə yerinə gətirmişdi. Sonra kimsə bu cümləni götürüb beş-altı dəqiqə sonra darvazadan içəri girən bibimin qabağına qaçmışdı: "O deyil".

Atamgil morqdan çıxandan nə qədərsə sonra ora başqa adamlar getmiş, həmin mələfəni eyni həyəcanla qaldırmış, "odur" demişdilər. Sonra bu qara xəbər başqa mahala yol almış, başqa həyətdə yas çadırı qurulmuş, başqa məzarlıqda bir məzar sayı artmışdı. Bu, atamın səsinin düşdüyü quyudakı o müharibənin əclaflığı idi.

Həmin gecə mən yenə də eyvanımızda anamın qurduğu miçətkəndə uzanıb buludların arasıyla süzən Ayı və göyün lap dərinliklərinə mıxlanmış kimi görünən ulduzları seyr edərək düşünürdüm ki, ölümlə həyat bu dünyadakı ən qəddar antonimdi.